*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 101-108*

https://doi.org/10.62837/2026.3.101

**ELŞAD TALEH OĞLU ƏLİYEV**
***Baş müəllim***
***Sumqayıt Dövlət Universiteti***
***elshad.aliyev@sdu.edu.az***
***orcid: 0009-4602-7455***

# MƏTNİN İDEYASI ANLAYIŞI VƏ ONUN DİLÇİLİKDƏ FUNKSİONAL-SEMANTİK MAHİYYƏTİ

***Xülasə***

Mətn müasir dilçilikdə ideya anlayışının mətnin semantik bütövlüyünü və struktur təşkilini müəyyən edən əsas məzmun nüvəsi olduğunu əsaslandırır. Vurğulanır ki, mətn yalnız cümlələr ardıcıllığı deyil, semantik, praqmatik və ideoloji komponentlərin qarşılıqlı əlaqəsidir. İdeya müəllifin gerçəkliyə münasibətini, cəmiyyətə ötürmək istədiyi mesajı və kommunikativ məqsədini ifadə edir; bu, həm açıq, həm də mətnaltı formada reallaşa bilər. Mətnlərdə əsas və köməkçi ideya anlayışları, abzas səviyyəsində ideyanın təşkili, problemə yanaşma modelləri və müxtəlif üslublarda ideyanın təqdim üsulları izah olunur. Tarixi və ictimai kontekstlərdə ideyanın formalaşması və kollektiv yaddaşa təsiri göstərilir. Nəticədə ideyanın düzgün müəyyənləşdirilməsinin mətnin dərin təhlili və interpretasiyası üçün həlledici əhəmiyyət daşıdığı qənaəti irəli sürülür.

**Açar sözlər:** mətn ideyası, semantik nüvə, mətnaltı informasiya, struktur-semantik bütövlük, müəllif mövqeyi, ideoloji istiqamət

Müasir dilçilikdə mətn yalnız formal cümlələr toplusu deyil, semantik, praqmatik və ideoloji komponentlərin vəhdəti kimi qəbul olunur. Bu baxımdan mətnin ideyası onun struktur və məzmun bütövlüyünü təmin edən əsas semantik nüvə kimi çıxış edir. Mətnin ideyası müəllifin gerçəkliyə münasibətini, cəmiyyətə çatdırmaq istədiyi əsas mesajı və kommunikativ niyyətini özündə əks etdirir. İdeya mətn daxilində açıq şəkildə ifadə oluna bildiyi kimi, həm də mətnaltı informasiya, obrazların fəaliyyəti, leksik-semantik vasitələr və kontekstual əlaqələr vasitəsilə dolayı şəkildə formalaşa bilər. Bu xüsusiyyət mətnin yalnız dil vahidi deyil, həm də idrak və ideoloji təsir vasitəsi olduğunu göstərir. Buna görə də mətnin ideyasının müəyyənləşdirilməsi mətnin düzgün qavranılması, təhlili və interpretasiyası baxımından mühüm nəzəri və praktik əhəmiyyət kəsb edir.

Azərbaycan dilinin izahlı lüğətində yazılır: "1.İnsan şüurunda varlığı (həqiqi və ya yanlış şəkildə) əks etdirən və onun bizi əhatə edən mühitə münasibətini ifadə edən anlayış, təsəvvür; 2.Dünyagörüşünün əsas və ən mühüm prinsipi, məfkurə, məslək, əqidə. İdeya mübarizəsi. İdeya silahı. Qabaqcıl ideyalar. Yeni Azərbaycan ədəbiyyatında demokratik ideyalar realizm üslubu ilə doğur. M. İbrahimov; 3. Fikir, qayə, məqsəd. Sülhü qorumaq və möhkəmləndirmək ideyası. İdeyanı həyata

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 101-108*

keçirmək.- (Aslan:)Demək sən çox kiçik qəlbli adammışsan. İdeyan da yeməkmiş (S.Vəliyev). // Bir şeyin əsas və başlıca məqsədi. Romanın əsas ideyası. Pyesin ideya məzmunu" [4. 503 s.].

Mətnin ideyasını vermək üçün dil materialı lazım olur. Bu materiallar mətnin üslubundan, təzahür formasından asılı olaraq dəyişir. Bu barədə Viktor Andreyeviç Kanke yazır: "Dil yalnız idrak üçün deyil, həm də fəaliyyət üçün vacibdir" [1. 193 s.].

*Yonca kənd təsərrüfatında mühüm rol oynayan bitkidir. Onun kök sistemi torpağı azotla zənginləşdirərək münbitliyini artırır və eroziyanın qarşısını alır. Bu bitki heyvandarlıq üçün əsas yem mənbəyi olmaqla yanaşı, bioloji gübrə kimi də istifadə edilir. Yoncanın tərkibindəki qida maddələri torpaq üçün əlverişli mühit yaradır, digər bitkilərin məhsuldarlığını yüksəldir. Onun təzə və quru formada tətbiqi təsərrüfatda geniş imkanlar açır. Yonca yalnız məhsul istehsalını artırmaqla kifayətlənmir, eyni zamanda xərcləri azaltmağa və ətraf mühiti qorumağa kömək edir. Bu səbəbdən yonca həm iqtisadi, həm də ekoloji baxımdan əvəzedilməz bitki hesab olunur.*

***Mətnin əsas ideyasını əks etdirən fikir hansıdır?***

*A) Yonca yalnız heyvandarlıq üçün faydalıdır.*
*B) Yonca torpağın keyfiyyətini artırmaqda mühüm rol oynayır.*
*C) Yonca təbii gübrə kimi istifadə edilə bilməz.*
*D) Yoncanın təsərrüfatda istifadəsi məhduddur.*
*E) Bu bitki yalnız iqtisadi baxımdan əhəmiyyətlidir.*

***Cavab:*** *B*

Mətnin ideyası mətnin mərkəzi fikri, leytmotividir. Bəs istənilən mətn üçün bir mərkəzi xətt olurmu? Araşdırma nəticəsində məlum oldu ki, bütün mətnlər üçün bu doğru deyil. Bu həm mətnin üslubundan, həm həcmindən, həm də vəznindən asılı olaraq dəyişə bilir.

Mətnin ideyası həm deduksiya, həm induksiya, həm analogiya, həm də traduksiya (latınca- yerdəyişmə, köçürmə deməkdir) formasında təqdim edilə bilər. Düzdür, bəzi mətnlərdə bu prinsiplər nəzərə alınmır.

Mətnin ideyası mətndə cümlə və ya abzas şəklində verilə də bilər, məntiqi yanaşmaqla əsas hadisələrdən həmin ideya formalaşa da bilər.Yəni ideya birbaşa, ya da dolayı informasiyalarla ötürülə bilər. Bu, dilçilikdə ekspilist və inpilist təqdim adlanır.

*Ətlik və südlük mal-qara təsərrüfatda fərqli məqsədlər üçün istifadə edilir. Ətlik heyvanların əsas üstünlüyü qısa müddət ərzində yüksək çəkili məhsulun əldə olunmasıdır, lakin onların* ***saxlanılması*** *yüksək xərclərlə müşayiət olunur. Südlük heyvanlar isə uzunmüddətli məhsuldarlıqla seçilir və süd istehsalından əlavə süd məhsulları sənayesinin inkişafına töhfə verir. Müqayisə etsək, ətlik heyvanlar bir ildə 300-350 kiloqram çəki əldə edə bildiyi halda, südlük inəklər illik 6000-8000 litr süd istehsal edə bilir.*

*Mal-qara təsərrüfatında iqlim şəraiti və yem bazasının müxtəlifliyi mühüm əhəmiyyət daşıyır. Ardıcıllığa baxsaq, ilk addım kimi yüksək keyfiyyətli yem təmin edilməlidir, ikinci mərhələdə isə düzgün genetika seçimi həyata keçirilməlidir. Daha sonra təsərrüfat şəraitinin optimallaşdırılması vacibdir. Südlük heyvanlarda genetik seleksiya məhsuldarlığı 25%-ə qədər artırır, bu isə təsərrüfatın iqtisadi gəlirlərinə birbaşa təsir edir.*

*Eyni zamanda, bəzi təsərrüfatlar hər iki istiqaməti birləşdirməyə çalışır. Lakin bu yanaşma problemlər yarada bilər, çünki həm ət, həm də süd məhsuldarlığını eyni səviyyədə saxlamaq çox çətindir. Belə bir strategiya, ümumiyyətlə, hər iki sahədə məhsuldarlığın azalmasına səbəb olur. Səbəb-nəticə əlaqəsini araşdırsaq, bu, əsasən heyvanların fizioloji resurslarının həddindən artıq yüklənməsi ilə bağlıdır.*

*Beləliklə, təsərrüfatların uğuru düzgün strategiya, keyfiyyətli yem və iqlimə uyğunlaşmadan asılıdır. Bu amillər arasında harmoniya yaradılmadan həm ət, həm də süd istehsalında dayanıqlı inkişaf mümkün deyil.*

***Mətnin əsas ideyasını əks etdirən fikir hansıdır?***

*A) Ətlik mal-qara təsərrüfatda üstünlük təşkil edir.*
*B) Süd məhsuldarlığının artırılması üçün yem təminatı kifayətdir.*
*C) Təsərrüfatların uğuru düzgün strategiya və uyğunlaşdırılmış yanaşmadan asılıdır.*
*D) Həm ət, həm süd istehsalı ilə məşğul olan təsərrüfatlar daha çox gəlir əldə edir.*
*E) Genetik seleksiya yalnız ətlik heyvanlar üçün tətbiq olunur.*

***Cavab:*** *C*

Leksikologiya kitabında yazılır: "Mətnaltı informasiya bədii əsərdə gizli şəkildə özünü göstərir. Onun tam açılması qeyri-mümkündür. Mətnaltı informasiya oxucudan asılıdır. Oxucu əsəri necə anlayırsa, bu səviyyədə də mətnaltı məlumat çıxarır. Eyni bir əsər üçün müxtəlif sayda mətnaltı informasiyalar müəyyənləşdirmək mümkündür" [3. 52 s.]. İndi sual yaranır ki, istənilən bədii əsər üçün xarakterikdirmi? Adətən, bu suala cavab kimi əksər müsahiblər yumor, kinayə, satira və sarkazm əsasında yazılmış əsərləri təqdim edirlər. Lakin siyasi, dini, sosial və digər amillərdən bəzən əsas ideya, əsas fikir sətiraltı informasiyalarla təqdim edilə bilir. Məsələn, S.Vurğunun "Azərbaycan" şeirinə fikir verək:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam doğma vətənimsən,*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Bu şeirdə müəllif cənub həsrəti, cənubi Azərbaycan sevdasını sətiraltı dilə gətirmiş olur. El=Xalq bilir ki, bütöv Azərbaycan azərbaycanlılarındır.Babadan, atadan qalma və özünün də yaşadığı ərazidir. Doğulduğu məkan da Azərbaycandır. Ayrılarmı könül candan deyərkən Şimali və Cənubi Azərbaycanı nəzərdə tutur. Təkrarlanan *Azərbaycan* sözləri də birinə işarədir.

İdeya ümumi anlayışdır. Mətnin əsas ideyası, abzasın ideyası, müəllifin ideyası, əsas və ya köməkçi ideya anlayışlarına da diqqət etmək lazımdır. Mətnin əsas ideyası mətnin ideyası anlayışı, əsasən, eyniləşdirilir. Abzasın ideyası mətnin giriş hissəsində verilmiş əsas müddəanın açılmasında rol oynayan ideyadır. Müəllifin ideyası cəmiyyətdə formalaşdırmaq istədiyi əqidə və ya düşüncədir.

Bir abzas daxilindəki ideya, adətən, həmin abzasın ilk cümləsi olur. Digər cümlələr həmin fikrin açılmasına xidmət edir. Bəzən isə əksinə abzasın son cümləsi ideya kimi formalaşa bilir. Bədii üslubda olan mətnlərdə isə ideya bir abzas daxilində müəllif təhkiyəsində də, dialoqda da verilə bilər.

Mətnin ideyası anlayışı bəzən atalar sözləri, aforizmlər, hikmətli sözlər və s. ilə ifadəsi də mətn təhlilində nəzərə alınır. Məsələn,

***Mətnin ideyasına uyğun gələn aforizmi müəyyənləşdirin.***

*Rəvayətə görə, rus çarı ordusu ilə Dərbəndə gələndə əhali ruslara çörək satmır və orduda ərzaq çatışmazlığı yaşanır. Vəziyyəti öyrənmək üçün adamları ilə şəhərə çıxan Pyotr həyətdə çörək bişirən bir qadına rast gəlir və ondan çörək satmasını istəyir. Qadın isə onlarda qonağa çörək satmaq adətinin olmadığını deyib qonaqları süfrəyə dəvət edir. Pyotr kimlərin qonaq sayıldığını soruşduqda qadın deyir: "Qapımızı saf niyyətlə açan hər kəs bizim qonağımızdır" Bu sözləri bəyənən Pyotr qadını mükafatlandırır və Dərbənd əhalisinə hörmətlə yanaşır.*

A) *Ağıl olan yerdə gücə ehtiyac yoxdur.*
B) *Qüdrətli olmaq zəifi öz səviyyəsinə qaldıra bilməkdir.*
C) *Dost olmağa tələsməyin, amma dost oldunuzsa, bu dostluğa xəyanət etməyin.*
D) *Bir olsa yoldaşın, dostun əməli,*
*Daşdan su çıxarar onların əli.*
E) *İnsanlar körpü çəkmək əvəzinə hasar çəkdikləri üçün təklik yaşayırlar.*

***Cavab: A)***

Mətnin ideyası dəqiq müəyyən edildikdə cümlə və abzaslarda həmin ideyanın açılmasına xidmət edən dil faktlarından istifadə edilir. Nəticə hissəsində əsas fikrin təqdimi zamanı konkret ləridil faktlarından istifadə edilir: *Deməli, beləliklə, ümumiyyətlə, qısası, əlqərəz və* s. tipli ara sözlər.

Mətnlərin tərtibi zamanı bəzən mətn müəllifinin məqsədi ilə ideyası anlayışı qatışdırılır. Mətnin tərtib olunma məqsədi mətnin ideyasına xidmət edir. Məsələn, bədii təsvir vasitələrindən istifadə etmək, qafiyə təşkil edən sözlərdən istifadə etmək, kar və ya tələffüzü çətin olan səslərdən az istifadə etmək və s. bu kimi dil ünsürləri mətn müəllfinin mətni kimdən ötrü yazdığı ideyasına əsaslanır.

Problemli məsələlərə yanaşma baxımdan mətnlər üç qrupa bölünür: 1. Hər hansı problemi verib həllini tövsiyə edən mətnlər; 2. Problemi verib və həllini də özü təklif edən mətnlər; 3. Problem və həllinin mövcud yollarını verib əlavə həll yollarının verilməsinin vacibliyini vurğulayan mətnlər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 101-108*

*Bir çox mütəfəkkirin yetişdirildiyi fənlər, istifadə etdikləri üsullar və onların baxışlarının başlanğıc nöqtəsini təşkil edən elementlər bir-birindən fərqlidir. Bununla belə mütəfəkkirlərdə sabit olan şey onların ideya yaratmaq qabiliyyətinə yiyələnmələridir. Onların yazılarındakı fikirləri ilə öz fikirlərini birləşdirən oxucuların özünəməxsus fikirlərlə çıxış etməməsi, demək olar ki, mümkün deyil.*

***Mətndə mütəfəkkirlər haqqında hansı nəticəni çıxarmaq olar?***

*A) Lazım olanda onlar yetişdirdikləri fərdlərlə üzləşirlər.*
*B) Eyni üsuldan istifadə etməklə müxtəlif nəticələr əldə edə bildilər.*
*C) Bir-birinin yazılarını tənqid edərək fikir sənətini inkişaf etdirirlər.*
*D) Onlar müraciət etdikləri oxucu kütləsinin gözləntilərini nəzərə alırlar.*
*E) Fikirlərini çatdırdığı oxucuları yeni fikirlər, ideyalar yaratmağa sövq edirlər.*

***Cavab: E)***

Mətnlərin tərtibi zamanı müəllifin mətndəki obraz və hadisələrə yanaşması üç yerə ayrılır: 1.Müsbət obraz yaxud hadisə kimi qiymətləndirilir; 2. Mənfi obraz yaxud hadisə kimi qiymətləndirir; 3. Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi məntiqiylə desək, sadəcə mövcud olan obraz və hadisə kimi təqdimat.

Adətən, mətnin nəticə hissəsini mətnin ideyası kimi təqdim edən tədqiqatçılar da var. Düzdür, bu tipli mətnlər mövcuddur, ancaq bütün mətnlərə aid etmək olmaz. Məsələn, altmışıncılar nəsrinə aid olan sənətkarların əksəriyyəti öz hekayə, povest və romanlarının sonunu yarımçıq qoyur, əsərin sonunu oxucuya buraxır. İndi sual yaranır ki, həmin yanaşmaya görə bu mətnlərin nəticəsi yoxdurmu? Deməli, bu tipli mətnlərdə ideya mətnin ümumi məzmununda açılır.

Hər hansı elmi işin ideyasını aşağıdakı kimi deduktiv yanaşma ilə təqdim edə bilərik:

**Dissertasiya işi- məqalə- tezis- əsas fikir**

"Mətnin *əsas ideyasını* tapmaq adətən məlumatverici, qeyri-bədii mətnlərlə əlaqəli olsa da, arqumentativ mətnlər və bədii mətnlər üçün əlaqəli anlayışlar mövcuddur. Arqumentativ mətni oxuyarkən *əsas arqumenti axtara bilərsiniz. Bədii mətn üçün isə mövzunu* axtara bilərsiniz" [7].

İdeya eyni zamanda mətnin semantik bağlılığını özündə əks etdirən anlayışdır. Azərbaycan dilinin semasiologiyası kitabında yazılır: "Elmdə məna problemi o zaman qarşıya çıxır ki, müəyyən insan fəaliyyəti ilə, yəni dil vasitəsilə insanların ünsiyyət saxlaması problemini həll etməyə çalışalar" [5. 21 s.].

Bəzi mətnlər isə özündə daşıdığı ideyaya görə müxtəlif cür adlanırlar: Siyasi mətnlər, reklam mətnləri, dini mətnlər, ədəbi mətnlər və s. Bu tipli mətnlərdə müəllifin əsas ideyası aşağıdakı vasitələrlə təmin olunur:

- Leksik vasitələrlə: yaxşı, pis, qorxaq, qəhrəman, igid, xain, dürüst, ikiüzlü, alturist, zəhmətkeş, cəfakeş, cəfakar və s.;
- Sətiraltı informasiyalarla;
- Obrazın nitqi və ya əməllərini nümayiş etdirməklə;
- Obrazın dil xüsusiyyətlərini fərdiləşdirməklə və s.

R.Yusifoğlu yazır: "Əgər mövzu nədən yazır? sualına cavab verirsə, ideya nə demək istəyir? sualına cavab verir. İdeya əsərin nüvəsi, ruhu, canı, qanıdır. O, yazıçının maraqla öyrəndiyi həyat hadisələrindən, qəhrəmanların hərəkət və fəaliyyətindən doğur. İdeya ayrı-ayrı surətlərin hərəkət və davranışları, arzu və düşüncələri zəminində, bədii forma daxilində reallaşır. İdeya həyatdan doğsa da, subyektiv müəllif mövqeyindən, onun reallaşması isə müəllifin yaradıcılıq üslubundan asılıdır" [6. 37 s.].

Ədəbiyyatşünaslıq terminlər lüğətində yazılır: "İdeya həmişə insanların yaşadığı ictimai quruluşla, cəmiyyətin maddi həyat şəraiti ilə müəyyənləşir" [2. 74 s.].

Mətnlərin ideyasına yanaşma dünya dilçiliyində müxtəlif formada olmuşdur.

İstənilən mətnin ideyası olurmu?

Bildiyimiz kimi, ideya mətn müəllifinin cəmiyyətdə formalaşdırmaq yaxud görmək istədiyi yanaşmadır. Bu nəzəri fikrə əsaslanaraq bədii, publisistik, rəsmi-işgüzar və elmi mətnlərin təqdimi cəmiyyətə hər hansısa mesajı verməyi məqsəd qoyubsa, həmin mətnlərin ideyasının olduğu qənaətinə gəlmək olar. Əgər mətnlər sadəcə informasiya vermək, xəbər çatdırmaq məqsədi güdürsə, bu mətnlərin ideyası yoxdur, ancaq söylənmə məqsədi mövcuddur deyə bilərik.

Azərbaycan tarixi boyu müəyyən dövrləri əhatə edən ideoloji fikirləri özündə əks etdirən mətnlər yaranmışdır: İslam ideyalogiyası, sufizm və hürufizm ideyası, azadlıq ideyası, milli dil və milli əlifba ideyası, maarifçilik ideyalogiyası, sovet ideyalogiyası, müstəqillik ideyası, Azərbaycançılıq ideyası və s.

*Mətn əsasında uyğun fikirləri müəyyən edin.*

*Xalqların yaddaşında tarix yalnız quru rəqəmlərlə deyil, yaşanmış hadisələrin acısı və sevinci ilə qalır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın müstəqillik arzularının reallaşmasının ilk parlaq nümunəsi idi. Bu hadisə təkcə siyasi yox, həm də mənəvi bir qələbə kimi tarixə yazıldı. Çünki əsrlərlə imperiyaların əsarətində yaşayan bir millət öz dövlətini yaratmağı bacardı. Əlbəttə, cümhuriyyətin ömrü qısa oldu, lakin qoyduğu demokratik ənənələr xalqın gələcək mübarizəsinə işıq saçdı. Müstəqillik ideyası xalqın qan yaddaşına həkk olundu və nəsillərdən-nəsillərə ötürüldü. 1991-ci ildə bu ideya gerçəyə çevrildi və Azərbaycan öz istiqlalını yenidən bərpa etdi. Dünya ölkələri ilə ayaqlaşa bilən öz iqtisadiyyatını qurdu. Deməli, tarix göstərdi ki, azadlıq uğrunda atılan hər addım bir gün öz bəhrəsini verir.*

| ***Müsbət informasiya*** | ***Mənfi informasiya*** |
|---|---|
| *1. Qarabağ torpaqlarının azad edilməsi*<br>*2. XX əsrin sonlarında gerçəyə çevrilən ideya*<br>*3.Azərbaycan dayanıqlı iqtisadiyyatdan imtina etdi.* | *4. Xalqımızın imperiya əsarətində olması*<br>*5.Xalq Cümhuriyyətindən demokratik ənənələrin qalması*<br>*6.Uzunömürlü olmayan cümhuriyyət* |

***Cavab:2, 4, 6***

Beləliklə, aparılan nəzəri təhlil göstərir ki, mətnin ideyası onun semantik bütövlüyünü təmin edən, müəllifin gerçəkliyə münasibətini və kommunikativ niyyətini ifadə edən əsas məzmun komponentidir. İdeya mətn daxilində açıq və ya gizli formada, leksik vasitələr, mətnaltı informasiya, obrazların fəaliyyəti və kontekstual əlaqələr vasitəsilə reallaşır və mətnin struktur-semantik təşkilində aparıcı rol oynayır. Mətnin ideyasının düzgün müəyyənləşdirilməsi yalnız mətnin məzmununun anlaşılmasına deyil, həm də müəllif mövqeyinin, ideoloji istiqamətinin və praqmatik məqsədinin üzə çıxarılmasına imkan yaradır. Bu baxımdan ideya mətnin yalnız semantik nüvəsi deyil, həm də onun funksional və ideoloji mahiyyətini müəyyən edən əsas amildir. Müasir dilçilikdə mətnin ideyasının öyrənilməsi mətnin interpretasiyası, diskurs təhlili və kommunikativ fəaliyyətin izahı baxımından mühüm elmi əhəmiyyətə malikdir və bu sahədə aparılan tədqiqatlar mətnin dil, təfəkkür və cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin daha dərindən anlaşılmasına xidmət edir.

## Ədəbiyyat siyahısı

1. Andreyeviç V.K. Fəlsəfə. Dərs vəsaiti. Bakı, “Avropa” nəşriyyatı-2019, 236 səh.
2. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı. “Maarif” nəşriyyatı, 1978, 199 səh.
3. Müasir Azərbaycan dili. Leksikologiya. II kitab. Bakı: “Zərdabi nəşr” MMC, 2022.-1152 səh.
4. Orucov Ə. Azərbaycan dilinin izahlı lüğətinin II cildi 791 səh.
5. Verdiyeva Z., Ağayeva F., Adilov M. “Azərbaycan dilinin Semasiologiyası” Bakı, “Maarif” nəşriyyatı, 1979, 306 səh.
6. Yusifoğlu R. Ədəbiyyatşünaslığın əsasları. Bakı. ADPU nəşriyyatı, 2009, 288 səh.
7. https://www.thesaurus.com/articles/what-is-a-main-central-idea

**АЛИЕВ ЭЛЬШАД ТАЛЕХ ОГЛЫ**

## ПОНЯТИЕ ИДЕИ ТЕКСТА И ЕЁ ФУНКЦИОНАЛЬНО-СЕМАНТИЧЕСКАЯ СУЩНОСТЬ В ЯЗЫКОЗНАНИИ

## РЕЗЮМЕ

В тексте обосновывается, что в современной лингвистике понятие идеи выступает в качестве основного семантического ядра, определяющего смысловую целостность и структурную организацию текста. Подчеркивается, что текст представляет собой не просто последовательность предложений, а взаимодействие семантических, прагматических и идеологических компонентов. Идея отражает отношение автора к действительности, адресованное обществу сообщение и коммуникативную цель; она может реализовываться как эксплицитно, так и имплицитно через подтекст. Раскрываются понятия основной и вспомогательной идеи, организация идеи на

уровне абзаца, модели проблемной подачи материала и способы выражения идеи в различных функциональных стилях. Рассматривается формирование идеи в историческом и социальном контексте и её влияние на коллективную память. Делается вывод о решающем значении правильного определения идеи для глубокого анализа и интерпретации текста.

**Ключевые слова:** идея текста, семантическое ядро, подтекстовая информация, структурно-семантическая целостность, авторская позиция, идеологическая направленность

**ALIYEV ELSHAD TALEH OGLU**

## THE CONCEPT OF THE TEXT IDEA AND ITS FUNCTIONAL-SEMANTIC ESSENCE IN LINGUISTICS

### SUMMARY

The text substantiates that in modern linguistics the concept of idea constitutes the core semantic nucleus determining the semantic integrity and structural organization of a text. It is emphasized that a text is not merely a sequence of sentences, but an interaction of semantic, pragmatic, and ideological components. The idea reflects the author’s attitude toward reality, the message intended for society, and the communicative purpose; it may be realized both explicitly and implicitly through subtext. The study explains the notions of main and subsidiary ideas, the organization of ideas at the paragraph level, models of problem presentation, and the methods of idea representation across different functional styles. The formation of ideas within historical and social contexts, as well as their influence on collective memory, is also examined. It is concluded that accurate identification of the idea is crucial for profound textual analysis and interpretation.

**Keywords:** text idea, semantic core, subtextual information, structural-semantic integrity, author’s position, ideological orientation.

**Rəyçi: dos. Eminli Böyükxanım İbrahim qızı**